BEYNƏLXALQ MÜNASİBƏTLƏRİN TƏHLİLİ MƏRKƏZİ

TƏHLİL

# Dezinformasiya: onu stimullaşdıran səbəblər və beynəlxalq münasibətlərə təsiri


Türbət Bağırova

Mirzə İbrahimov 8, Bakı, AZ1005, Azərbaycan

(+994 12) 596-82-39, (+994 12) 596-82-41

E-mail: www.aircenter.az, info@aircenter.az


MART 2026

## Dezinformasiya: onu stimullaşdıran səbəblər və beynəlxalq münasibətlərə təsiri

### *İnformasiya hakimiyyət, sürət onun kralıdır*

1815-ci ildə Böyük Britaniya və Napoleon Fransası Vaterloo çölündə həlledici döyüşə hazırlaşarkən Londondakı investorlar səbrsizliklə müharibə meydanından gələcək xəbəri gözləyirdilər. Döyüşün nəticəsi təkcə Avropanın gələcək geosiyasi konfiqurasiyasını deyil, həm də London Fond Birjasının vəziyyətini müəyyənləşdirəcəkdi. Yəni Böyük Britaniyanın Vaterloodakı məğlubiyyəti iqtisadi baxımdan London Birjasının çöküşü, funtun dəyərinin azalması, siyasi baxımdan isə Britaniya taxt-tacının qüdrətinin zəifləməsi mənasına gəlirdi.

İnvestorlarla yanaşı, Avropanın müxtəlif mərkəzlərində geniş biznes maraqları olan məşhur Rotşildlər ailəsinin İngiltərədəki başçısı Natan Mayer Rotşild (Nathan Mayer Rothschild) də növbəti hərəkət trayektoriyasını müəyyənləşdirmək üçün Vaterloodan gələcək xəbərə köklənmişdi.

Nəticədə, 1815-ci ilin 18 iyununda baş verən döyüşdə Böyük Britaniya və Prussiyanın birləşmiş ordusu Fransanı məğlub edərək Napoleonun imperial gücü və Avropada dominantlıq cəhdlərinin qarşısını birdəfəlik aldı. İmperatorları Bonaparta sədaqətlə bağlı olan veteranlar, süvarilər və artilleriya Fransanı hersoq Vellinqtonun alman, niderlandlı, britaniyalılardan ibarət çoxmillətli ordusu qarşısında məğlubiyyətdən xilas edə bilmədi.

İnformasiyanın Vaterloodan Londona necə çatması ilə bağlı isə indiyədək müxtəlif maraqlı fikirlər səsləndirilib və yazılıb. Bir versiyaya görə, Natan M. Rotşild özü döyüşü şəxsən kənardan müşahidə edib və fırtınalı La Manşı keçməyə risk etməyən balıqçını rüşvətlə razı salaraq Londona məlumatı hamıdan öncə çatdırmışdı. Digər versiyaya görə, Rotşildlər ailəsinin öz kommunikasiya şəbəkəsi var idi və hətta bu informasiyaötürücü vasitələrdən biri göyərçinlər olub. Elə məhz göyərçinlər vasitəsilə N. Rotşild hamıdan öncə xəbəri alıb.

İstənilən ssenaridə, N. Rotşildin Vellinqtonun rəsmi elçisindən təxminən 24 saat öncə Londonda bu informasiyanı yaydığı ortaq qənaətdir.

Bu hadisə barədə media və kütləvi mədəniyyətdə ən geniş yayılmış təsəvvürlər belədir. Bəzi akademik yazılı mənbələrdəki qeydlərə də nəzər salaq.

Jurnalistika üzrə professor Brayan Ketkart **(Brian Cathcart) "Vaterloodan xəbər: Vellinqtonun qələbəsini ilk çatdırmaq uğrunda yarış"("The News from Waterloo: The Race to Tell of Wellington's Victory")** kitabında Sebastian Folksun *"A Week in December" əsərindəki* aşağıdakı qeydə istinad verir:

*"Lombard küçəsində olan hər kəs Vaterloo döyüşünün necə bitməsini Natanın birinci biləcəyini bilirdi. Rəqibləri onun hərəkətlərini təkrar edəcəkdi və heç kim əks tərəfdə yer almaq istəməyəcəkdi. Özünə diqqəti cəlb edəcək hiyləgər gizliliklə o, az sayda hökumət istiqrazlarını satmağa başladı. Kütlə onu izlədi və istiqraz bazarı çökdü. Rəqiblərinin xəbəri olmadan Natan vasitəçilərinin əliylə çox sayda hökumət istiqrazlarını əldə etdi. Vaterloodakı qələbə elan olunanda isə istiqraz qiymətlərindəki yüksəliş ona Londonun (the City) o zamana qədər gördüyü ən böyük sərvəti bəxş etdi".*[1]

İsmail Tokalak **"Pulun İmperatorları: Rotschildlərin Qlobal Gücü" ("Paranın imparatorları Rotschildlerin Küresel Gücü")** kitabında yazır:[2]

*"Natan Rotşild Vaterloo savaşının nəticəsini hamıdan öncə öyrənərək London birjasında ona uyğun mövqe tutmuşdu. Onun adına fəaliyyət göstərən birjaçılar fəaliyyətə keçmiş, ardınca isə İngiltərənin Vaterlooda məğlubiyyətə uğraması ilə bağlı xəbərlər yaymış və hamı panikaya düşmüşdü. Əslində, birjdakıların xəbərsiz olduğu digər oyun bu idi ki, Natan Rotşild onların tanımadığı öz adamlarına ucuzlaşan istiqrazları aldırırdı. Birjada hər kəs İngiltərənin məğlub olmasını düşünərək satış etmişdi. Bu, şeytanın ağlına gəlməyəcək oyun idi".*

Bəzi məlumatlara əsasən, N. Rotşild bu spekulyasiyadan 40 milyon funt sterlinq əldə etdi və "informasiyaya sahib olan dünyanın da sahibi olur" ifadəsini məhz həmin zaman dilə gətirdi. Beləliklə, informasiya ilə "silahlanmış" Natan informasiyanın hakimiyyət, sürətin isə onun kralı olduğu tezisini təsdiqləmiş oldu.

***İnformasiya yalnız onunla hərəkət edə bildikdə gücü təmsil edir***
***Daniel Burrus***

Təhlilin birinci hissəsində Rotşildlər haqqında kütləvi mədəniyyətdə geniş yayılmış fikirlərə (qarayaxma və böhtan xarakterli iddialara) istinad edilməklə, əslində saxta məlumatların nə qədər təhlükəli nəticələrə səbəb ola biləcəyinə diqqət çəkilir. Bu yanaşma həm də oxucunun ilk oxuduğu informasiyaya tənqidi yanaşmasını təmin etmək və onun düşüncəsində sual yaratmaq üçün nəzərdə tutulmuş bir növ fərdi sınaqdır.

Belə ki, 2015-ci ildə "The Independent" nəşri Rotşildlərə yönəlmiş antisemit ittihamlarla bağlı araşdırma dərc etdi. Müəllif Brayan Ketkarta görə, yuxarıda qeyd olunan və kifayət qədər geniş yayılmış konspiroloji nəzəriyyənin kökləri 1846-cı ildə Avropa mətbəələrində yayılmağa başlayan "Histoire édifante et curieuse de Rothschild Ier, roi des juifs" (Yəhudilərin kralı I Rotşildin ibrətamiz və maraqlı

---

[1] Brian Cathcart, "The News from Waterloo: The Race to Tell of Wellington's Victory", London, 2015, səhifə 167
[2] İsmail Tokalak "Paranın imparatorları Rotschildlerin Küresel Gücü", İstanbul, 2014

hekayəsi) adlı siyasi-satirik mövzuda yazılmış pamfletə gedib çıxır. (https://gallica.bnf.fr/ark:/12148/bpt6k5660688h.texteImage) [3]

Jorj Dernvel (Georges Dairnvaell) tərəfindən yazılan bu pamflet Rotşild ailəsi və onun Avropadakı təsir gücünə həsr edilib. Brayan Ketkart yazır ki, *"Şübhəsiz bu əhvalat antisemit niyyətlidir. Dernvelin əhvalatının hər aspekti-qəddarlıq, hiyləgərlik, tamahkarlıq, alçaldıcı irqi stereotipi təmsil edir və oxşar baxışların periodik olaraq Avropada yayıldığı dövrdə yazılıb.*

*Bu əhvalat, həmçinin saxtadır: Natan Rotşild həmin vaxt nəinki Vaterlooda, heç Belçikada da olmayıb. La Manş boğazında tufan qopmayıb. Birjadan da böyük qazanc əldə etməyib"*.[4]

ABŞ-dən olan jurnalist Con Flin (John T. Flynn) **"Sərvət sahibləri" ("Men of Wealth")** kitabında yazır:

*"Əlbəttə ki, Natanın Vaterloo çevrilişinin hekayəsi tamamilə uydurmadır. Vaterloodan bir gün sonra bütün Avropa hökumətlərinin Rotşildlərə borclu olduğuna dair bəyanat da eyni dərəcədə uydurmadır. Hökumətlərin onlara heç bir borcu yox idi - bəlkə də şübhəli olan kiçik Danimarka hökuməti istisna olmaqla"*.[5]

Lakin haqqında bəhs edilən pamflet bir çox dillərə tərcümə olundu və dəfələrlə yenidən nəşr edildi. Mədəniyyətdə, akademik nəşrlərdə bu və ya digər formada öz əksini tapdı və daha sonrakı illərdə də öz mənfi təsirlərini davam etdirdi.

Yəni şüurlu qaydada dövriyyəyə buraxılan məlumat toplusu manipulyasiyaya məruz qalaraq müvafiq siyasi çalar da əlavə edilməklə gələcəkdəki faciəvi hadisələrin konturlarını dəqiqləşdirdi. Dildən-dilə dolaşan rəvayətlər, hekayələr əvvəl kütləvi mədəniyyətin bir parçası, sonra akademik əsərlərin tərkib hissəsi, daha sonra isə 1935-ci ildə bir irqin digərlərindən üstün olduğunu elmi nöqteyi-nəzərdən əsaslandırmaq məqsədi daşıyan "Annenerbe" (Qədim Alman Tarixi və Əcdad İrsinin Öyrənilməsi üzrə Alman Cəmiyyəti) kimi qurumların yaranmasına yol açaraq Holokostun yaşanması ilə "zirvə"yə çatdı.

---

[3] The Rothschild Libel: Why has it taken 200 years for an anti-Semitic slur that emerged from the Battle of Waterloo to be dismissed?, https://www.independent.co.uk/news/uk/home-news/the-rothschild-libel-why-has-it-taken-200-years-for-an-antisemitic-slur-that-emerged-from-the-battle-of-waterloo-to-be-dismissed-10216101.html

[4]Brian Cathcart, "The Rothschild Libel: Why has it taken 200 years for an anti-Semitic slur that emerged from the Battle of Waterloo to be dismissed?" https://www.independent.co.uk/news/uk/home-news/the-rothschild-libel-why-has-it-taken-200-years-for-an-antisemitic-slur-that-emerged-from-the-battle-of-waterloo-to-be-dismissed-10216101.html

[5]John T. Flynn, "Men of Wealth," New York, 1941, səhifə 123

***Yalan ayaq tutar...***

“Yalan ayaq tutar, amma yeriməz” atalar sözü artıq öz aktuallığını itirir. Müasir dövrün prosesləri göstərir ki, artıq ayaq tutan yalanlar həm yeriyir, həm də sürətlə qaçır.

Yalan təbiətdəki bütün canlıların instinktiv ehtiyacı olsa da, yalnız insan bu ehtiyacı şüurlu şəkildə istifadə edir və uzunmüddətli perspektivlər üçün nəzərdə tutur. Şir, canavar və digər heyvan sürüləri üçün yalan (aldadıcı və çaşdırıcı fəndlər) təməl ehtiyaclarının qarşılanması ilə məhdudlaşır. Şirlər üçün Afrikadakı şir nəslinin məhz hansı prayddan (ingiliscə, pride-şir sürüsü) davam edəcəyinin əhəmiyyəti yoxdur. Doyacağı qədər ov ona bəs edir. Ovunu yeyərkən asanlıqla tuta biləcəyi digər ceyranlar onu az maraqlandırır. İnsanı digər canlılardan fərqləndirən əsas keyfiyyətlərdən biri də budur. O, tox ikən daha ac olur və bu yolda hər fəndə, manipulyasiya və vəhşiliyə hazırdır.

Gündəlik məişət həyatının tərkib hissəsi olan yalan fərdi xarakterli olmaqdan çıxıb daha geniş kütlələrə siyasət, mətbuat, sosial media vasitəsilə sistematik və koordinasiyalı formada konkret məqsədin təbliği məqsədilə nüfuz etdikdə isə dezinformasiyaya çevrilir.

Dezinformasiya əslində ümumi anlayışdır və müxtəlif səpkili yanlış məlumat axınlarını müəyyən edən təsnifatları özündə ehtiva edir.

**“Saxta xəbərin psixologiyası” (“The Psychology of Fake News”)** nəşrində bu anlayışlara aydın tərif verilir. Qeyd edilir ki, **dezinformasiya** şəxs, sosial qrup, təşkilat və ya dövlətə zərər vermək niyyəti ilə bilərəkdən istehsal edilən saxta məlumat axınıdır.

**Misinformasiya** zərər yetirmək niyyəti olmadan yayılan, faktoloji baxımdan yanlış və ya qeyri-dəqiq məlumat axınını ifadə edir.

Lakin zərər yalnız yalan məlumatın deyil, doğru məlumatın da yayılması yolu ilə baş verə bilər. Məsələn, ictimai məsələlərlə əlaqəsi olmayan, faktiki doğru, şəxsi məlumatların sızdırılmasını bura aid etmək olar. Bu tip məlumatları isə **malinformasiya** (zərərli informasiya) adlandırırlar. Yəni fakta əsaslanır, lakin kontekstdən çıxarılaraq ziyan vurmaq, manipulyasiya məqsədi daşıyır.[6]

Dernvelin pamfleti nümunəsində qeyd edilən anlayışları bir qədər də aydınlaşdıraq. Belə ki, Natan Rotşildin La Manşı keçərək London birjasının çöküşünə səbəb olan addımlar atması mövcud olmayan saxta gündəm yaratdığı üçün dezinformasiyadır.

[6] Rainer Greifeneder, Mariela E. Jaffé, Eryn J. Newman, and Norbert Schwarz “The Psychology of Fake News”, Routledge, London and New York, 2021, səhifə 2

Bu pamflet barədə eşidib ordakı məlumatların yalan və ya doğru olmasını mühakimə etmədən fakt kimi qəbul edilməsi və yayılması isə misinformasiyadır. Şüursuz və hər hansı niyyəti olmadan bu axına qoşulan şəxslər isə misinformasiyanın daşıyıcılarıdır.

Pamfletin əsaslandığı yeganə doğru informasiya isə Rotşildlərin həqiqətən də varlı olmasıdır. Lakin Dernvelin bu sərvətin mənbəyinin hiyləgərliklə əlaqələndirməsi və bunu yəhudi kimliyi ilə eyniləşdirməsi malinformasiyadır. Yəni zənginlik faktı özlüyündə doğrudur, lakin onun kontekstdən çıxarılıb manipulyativ çərçivədə təqdim olunması malinformasiya elementinin aşkar göstəricisidir.

Yuxarıda qeyd edilənlərlə yanaşı, bir də **saxta xəbər** (fake news) anlayışı mövcuddur. İctimai diskursda "fake news" termini, əsasən siyasi sfera ilə assosiasiya olunur. Kembric lüğəti bu ifadənin mənasını belə müəyyənləşdirir: "Xəbər kimi görünən, internet və ya digər media vasitələrindən istifadə edərək yayılan, adətən siyasi baxışlara təsir göstərmək və ya zarafat etmək üçün yaradılan yalan hekayələr".

London İqtisadiyyat və Siyasi Elmlər Məktəbinin (London School of Economics and Political Science, LSE) Media və Kommunikasiyalar Departamentinin dosenti Nik Anstedə (Nick Anstead) görə, "fake news" anlayışı ən azı 6 müxtəlif növü əhatə edir:

1. **Satira-**Bu, real xəbərlərin təqdimat elementlərinin bir çoxunu özündə birləşdirdiyinə görə "fake news" kateqoriyasına daxil edilir. Əsasən, siyasi mövzulara yumor prizmasından yanaşır.
2. **Parodiya-**Satiraya bənzəyir. Real xəbərlərin təqdimat üslubunu təqlid edir və istehza ilə göstərir. Lakin satiradan fərqli olaraq, real xəbərlərə çox əsaslanmır, daha çox xəbər təqdimat tərzini imitasiya edir.
3. **Uydurma-**Auditoriyanı məqsədli şəkildə çaşdırmaq niyyəti ilə istehsal edilən xəbərlərdir.
4. **Fotomanipulyasiya-**Xəbər kontentində istifadə olunan vizual materiallarla manipulyasiyadır. (şəkillərin dəyişdirilməsi və ya saxtalaşdırılması)
5. **Təbliğat (Propaganda)-**Hökumətlər tərəfindən həm daxili, həm də beynəlxalq auditoriyanı aldatmaq və ya onların fikirlərinə təsir göstərmək məqsədilə hazırlanmış qeyri-dəqiq və ya təhrif olunmuş məzmundur.
6. **Reklam və ictimaiyyətlə əlaqələr-**Xəbər formatı və üslubuna bənzər şəkildə hazırlanmış, lakin əsas məqsədi ictimaiyyətə müəyyən bir məhsulu və ya xidməti satmaq olan media məzmunudur.[7]

Sosial media platformalarının əlçatanlığının artması **trollinq** fenomeninin də aktuallığını artırıb. Onlayn mühitdə insanları qəsdən və aqressiv şəkildə narahat edən, təhqiramiz, təxribat xarakterli və ya mübahisə doğuran şərhlər trollinq hesab olunur.

---

[7] Nick Anstead, "WHAT DO WE KNOW AND WHAT SHOULD WE DO ABOUT…? Fake News", London, səhifələr 15-16

Trollinq həm dezinformasiyanın yan məhsulu (byproduct), həm də yayılma vasitəsi kimi nəzərdən keçirilə bilər. Əgər trollinq qeyri-ciddi məqsədlə, sadəcə reaksiyaya səbəb olmaq üçün həyata keçirilirsə, o zaman dezinformasiyanın yan məhsulu kimi çıxış edir. Lakin trollinq yanlış məlumatların yayılmasına xidmət edirsə, bu halda o, dezinformasiyanın yayılma vasitəsinə çevrilir.

Aktuallığını artıran başqa sfera isə süni intellektdir. Bir neçə il əvvəl inandırıcı saxta video hazırlamaq üçün ciddi resurslar və peşəkar texniki bacarıqlar tələb olunurdusa, bu gün yalnız cüzi maliyyə vəsaiti və bir neçə dəqiqə kifayətdir. Əvvəllər yanlış məlumatlar əsasən paylaşma yolu ilə yayıldığı halda, indi ayrı-ayrı fərdlər özləri inandırıcı görünən yanlış məlumatlar yarada bilirlər. Yəni əgər əvvəl dezinformasiya nisbətən təşkilatlanmış, koordinasiyalı və sistemli şəkildə aparılırdısa, süni intellekt sayəsində hazırkı vəziyyət daha çox nəzarətdən çıxmış, anarxik və idarəolunmayan məkanı xatırladır.

Qeyd edilən təsnifat və xüsusiləşdirmələr əsasında bu qənaətə gəlmək olar ki, dezinformasiya daha geniş anlayış olub, qəsdən yayılan yanlış məlumatların bütün toplusunu əhatə edir. Saxta xəbərlər də bura daxildir, onun əsas fərqləndirici xüsusiyyəti isə xəbər formatı və üslubunda hazırlanmasıdır.
Burda yeganə həqiqət ondan ibarətdir ki, sadalanan informasiya kateqoriyaları doğru kimi qəbul edildikdə və başqaları ilə paylaşıldıqda dağıdıcı təsirə malik olur, bir dəfə ictimaiyyət tərəfindən istehlak edildikdən sonra isə onu düzəltmək olduqca çətinləşir.

***Dezinformasiyaya nümunələr***

Dezinformasiyanın tarixi ən azı Misir sivilizasiyasının tarixi qədər qədimdir. Onun qeydə alınmış ilk nümunələrindən biri Misir fironu II Ramzesin e.ə XIII əsrdə Kadeş döyüşündə Hititlərə qarşı həlledici qələbə qazandığını əks etdirən məbəd divarlarinda əks olunmuş təsvirlərdir. Lakin tarixçilər qeyd edir ki, iki dövlət arasında imzalanan müqavilə döyüşün nəticəsiz başa çatdığını göstərir.[8]

Ümumiyyətlə, tarixçilər II Ramzesin böyük hərbi sərkərdə olması fikrinin də şişirdilmiş informasiya olduğu qənaətindədirlər. Belə ki, “ “Antiquity” jurnalında dərc olunmuş bir araşdırmada göstərilir ki, İngiltərə alimləri Liviya ərazisindəki Misir qalasından beş mildən az məsafədə 3300 illik tarixi olan hər növ qədim əkinçilik alətləri və mal-qara saxlanmasına dair dəlillər tapıblar. Bu kəşf göstərir ki, misirlilər Liviyanın ərazisində hərbi müdafiə olmadan kənd təsərrüfatı ilə məşğul olublar. Bu da

[8] A Brief Overview of ‘Fake News’ in the Age of Information - Nayeemudeen Syed Ibrahim https://www.goethe.de/ins/cz/en/kul/the/dyi/lanky/22206745.html

iki ölkənin müharibədə olmadığını, əksinə bir-biri ilə sülh şəraitində yaşadığını göstərir”.[9]

Oktavian Avqust tərəfindən Mark Antoni əleyhinə aparılan təbliğat kampaniyası da dezinformasiya müharibəsinin ilk nümunəsi kimi qiymətləndirilir. Bu mübarizə saxta sənədlər, dedi-qodular və hadisələrin təhrif olunmuş təsvirləri vasitəsilə aparılırdı və bunların hamısı dövrün əsas kommunikasiya vasitələri olan poeziya, ikonoqrafiya və hətta döymə məmulatları vasitəsilə Roma ictimaiyyətinə çatdırılırdı.[10]

Daha müasir dövrün dezinformasiya kampaniyalarıından biri ötən əsrin sonu, 2000-ci illərin əvvəllərində ABŞ-nin geniş təbliğatını apardığı Kütləvi Qırğın Silahları (KQS) ilə bağlı idi.

2003-cü ildə baş verən İraq müharibəsi və onun sonrakı nəticələri hökumət mənbələrinin etibarlılığı və medianın bu prosesdəki rolu ilə bağlı ciddi suallar yaratdı. Həmin ilin fevralın 5-də ABŞ dövlət katibi Kolin Pauel növbəti ay baş tutacaq İraq əməliyyatını əsaslandıran arqumentlər barədə danışarkən peyk görüntüləri və audio yazıları əhatə edən geniş təqdimatla çıxış etdi.

*“Hörmətli həmkarlarım, bu gün söylədiyim hər bir bəyanat mənbələrlə dəstəklənir. Etibarlı mənbələrlə. Bunlar iddialar deyil. Sizə təqdim etdiyimiz faktlar və nəticələr möhkəm kəşfiyyata əsaslanır. ...Çoxsaylı insan mənbələri (human sources) bizə bildirir ki, iraqlılar təkcə sənədləri və sərt diskləri deyil, həm də kütləvi qırğın silahlarını gizlətmək üçün hərəkət etdirirlər ki, müfəttişlər onları tapa bilməsin”.*[11]

ABŞ hökuməti tərəfindən irəli sürülən əsas arqumentlərdən biri də Səddam Hüseynin “Əl-Qaidə” terror təşkilatı ilə əlaqələrinin olması ilə bağlı idi.

*“Lakin İraqda hərbi əməliyyatlar başladıqdan sonra və zaman keçdikcə nə “Əl-Qaidə” ilə əlaqələrə, nə də kütləvi qırğın silahlarının mövcudluğuna dair konkret sübut ortaya qoyulmadı. Nəticədə, hökumətin irəli sürdüyü iddiaların zəif və etibarsız kəşfiyyat məlumatlarına, eləcə də məqsədli şəkildə yayılan dezinformasiyaya əsaslandığı getdikcə daha aydın şəkildə üzə çıxdı”*.[12]

---

[9] Ancient Egypt Artifacts Depicting Ramses the Great as Victorious General Were Spreading Fake News https://www.newsweek.com/ramses-great-ancient-egypt-fake-news-lying-pharaoh-794025

[10] Emma Claussen , Luca Zenobi, “Fiction and Disinformation in Early Modern Europe: An Introduction” https://academic.oup.com/past/article/257/Supplement_16/1/6782268

[11] United Nations Security Council Fifty-eighth year 4701st meeting Wednesday, 5 February 2003, New York https://docs.un.org/en/S/PV.4701

[12] Lamia Jarroud. Framing the 2003 Iraq War: Propaganda, Media and the American Public. Humanities and Social Sciences. 2025. ffdumas-05267478, https://dumas.ccsd.cnrs.fr/dumas-05267478v1/document

## *Azərbaycana qarşı dezinformasiya kampaniyaları*

Müstəqilliyin bərpasından ötən illər ərzində Azərbaycan hər zaman dezinformasiya kampaniyalarının hədəfi olub. Ermənistan tərəfindən Rusiyanın dəstəyi ilə Azərbaycana qarşı elan edilməmiş müharibə və sistemik qırğın siyasəti, eləcə də ölkə daxilindəki formalaşmamış dövlətçilik, qeyri-praqmatik xarici siyasət kursu, hakimiyyət uğrunda çəkişmələr bu təhdidlərin uzunmüddətli təhlükəyə çevrilməsinə şərait yaratdı. "Böyük Ermənistan" narrativi əsasında erməni diasporu tərəfindən aparılan informasiya siyasəti öz nəticələrini verirdi. 1992-ci ilin oktyabrında erməni diasporunun ən güclü olduğu ştatlardan olan Utah ştatından Nümayəndələr Palatasının üzvü olan Ueyn Ouens (Wayne Owens) və Massachusetts ştatından senator Con Kerry (John Kerry) Azadlığa Dəstək Aktına 907-ci düzəlişi təklif etdilər. Dəyişiklik elə həmin ilin 24 oktyabrında Prezident Corc Buş (George H. W. Bush) tərəfindən imzalanaraq qüvvəyə mindi. Dezinformasiya, daha dəqiq, malinformasiya fəaliyyətləri nəticəsində qəbul edilmiş bu düzəliş yalnız Azərbaycana göstərilən yardımı şərti şəkildə dayandırmaqla kifayətlənmədi, həm də növbəti üç onillik ərzində sülh və sabitliyi zəiflədərək Cənubi Qafqazda "boz zona"nın formalaşması üçün bütün mümkün şərtləri formalaşdırdı.

Azərbaycan əleyhinə dövriyyəyə buraxılan və əsasən, Qərb mediası tərəfindən yayılan bu narrativlər bir çox hallarda qəlib halına salınır və aksiom kimi qəbul edilirdi. 44 günlük müharibəyə qədər Azərbaycana münasibətdə ən yaxşı halda, "tərəfsiz" (təcavüzkar və təcavüzə məruz qalan arasında parallelik aparılırdı) görüntüsü verilən informasiyaların yer aldığı Qərb mediası ondan sonrakı mərhələdə dezinformasiyanın bütün vasitələrinə əl atdı.

44 günlük müharibənin başlanmasından sonra Azərbaycana qarşı aparılan dezinformasiya kampaniyasının mərkəzində məhz bu yanaşma dayanırdı: sanki 2020-ci il 27 sentyabrda başlayan hadisələrin əvvəlki tarixi olmayıb; Azərbaycan əraziləri işğal edilməyib; Ermənistan beynəlxalq hüququ pozmayıb və Azərbaycan erməni xalqını hədəf almaq məqsədilə hücumlara başlayıb.

Həmin dövrdə Ermənistan və erməni diasporu informasiya müharibəsini hədəf auditoriyanın kök yaddaşı və qavrayış prizmasına uyğun şəkildə quraraq əsasən aşağıdakı istiqamətlər üzrə təşkilatlanmışdılar:

1. Xristian dünyasında münaqişə "xristian demokratik dövlət ilə müsəlman qeyri-demokratik dövlət arasında qarşıdurma" kimi təqdim edilirdi;
2. Qərb liberal dairələrinin dəstəyini qazanmaq məqsədilə Azərbaycanda yaşayan erməni azlığının hücuma məruz qaldığı barədə təsəvvür formalaşdırılırdı;

3. Müsəlman ölkələrində isə təbliğat münaqişənin dini yox, etnik xarakter daşıması aspektindən cəmiyyətə təqdim edilirdi. Xüsusilə ərəb coğrafiyasında qarşıdurma türk-erməni müharibəsi kimi təqdim edilirdi;
4. Həmçinin, Azərbaycanın Ermənistanı hədəf aldığı barədə təsəvvür yaradılaraq Rusiyanın münaqişəyə daha fəal cəlb olunmasına təkan verməyə çalışırdılar.[13]

Qeyd edilən yanaşmalara çoxsaylı nümunələr göstərmək olar. Qısa olaraq bir neçə nümunəyə nəzər salaq:

- St. John's Universitetində hüquq professoru və Mattone Hüquq və Din Mərkəzinin (Mattone Center for Law and Religion) direktoru Mark Movsesyanın müəllifi olduğu *"Xristian Ermənistan hücuma məruz qalır" ("Christian Armenia Under Attack)* başlıqlı məqalə yuxarıda qeyd edilən narrativlər əsasında qurulub.[14]
- ABŞ-də fəaliyyət göstərən Xarici Əlaqələr Şurasının (Council on Foreign Relations) baş elmi işçisi Devid Şaffer (David J. Scheffer) tərəfindən yazılmış *"Dağlıq Qarabağda etnik təmizləmə baş verir: Dünya necə cavab verə bilər" ("Ethnic Cleansing Is Happening in Nagorno-Karabakh. How Can the World Respond?"* sərlövhəli məqalənin birinci cümləsi belədir: *"Əksəriyyəti müsəlman olan Azərbaycanın ərazisində yerləşən Dağlıq Qarabağ anklavının xristian etnik erməni əhalisi sürətlə etnik təmizləməyə məruz qalır."* [15] Qeyd edək ki, beynəlxalq hüquq üzrə ixtisaslaşan Devid Şaffer həm də Bill Klintonun prezidentliyinin ikinci dövründə ABŞ-nin müharibə cinayətləri üzrə xüsusi səfiri (Ambassador-at-Large for War Crimes Issues) vəzifəsində çalışıb. Xarici Əlaqələr Şurası isə ABŞ-nin xarici siyasət kursunun müəyyənləşdirilməsində ən təsirli institutlardan biri hesab olunur.
- "Opinio Juris" nəşrində dərc edilən *"Etimadın İtirilməsi: Azərbaycanın Dağlıq Qarabağ ermənilərі qarşısında öhdəliklərindən imtina etməsi" ("Faith No More: Azerbaijan's Abdication of Duty Towards the Armenians of Nagorno-Karabakh")* sərlövhəli məqalə də Azərbaycanın "dinc və aclıqdan əziyyət çəkən" erməni əhaliyə "hücum" etməklə insan haqlarını pozması və beynəlxalq təşkilatlar qarşısında götürdüyü öhdəliklərə əməl etmədiyini iddia edir. Məqalənin həmmüəlliflərindən Dr. Endryu Ford *(*Andrew Forde) Qalway Universitetinin İrlandiya İnsan Hüquqları Mərkəzində qonaq tədqiqatçı kimi fəaliyyət göstərir. O həm də Avropa Şurası və ATƏT-də 10 ildən artıq işləyib. Digər müəllif Şeyla Paylan (Sheila Paylan) insan hüquqları üzrə vəkildir və 15

---

[13] Cavid Vəliyev, "Azerbaijan Still Under Disinformation Attack", https://moderndiplomacy.eu/2022/12/15/azerbaijan-still-under-disinformation-attack/

[14] Mark Movsesian, "Christian Armenia Under Attack" https://firstthings.com/christian-armenia-under-attack/

[15] David J. Scheffer, "Ethnic Cleansing Is Happening in Nagorno-Karabakh. How Can the World Respond?" https://www.cfr.org/articles/ethnic-cleansing-happening-nagorno-karabakh-how-can-world-respond

ildən artıq müddət ərzində Birləşmiş Millətlər Təşkilatının hüquq məsləhətçisi kimi fəaliyyət göstərmişdir. O, 2020-ci il müharibəsindən sonra Ermənistan Respublikasına pro bono (ödənişsiz) hüquqi məsləhət vermiş, o cümlədən 2021-ci ildə Ermənistanın Azərbaycana qarşı ilk müvəqqəti tədbirlər tələbini Beynəlxalq Ədalət Məhkəməsinə təqdim etməsi prosesində iştirak etmişdir.[16]

- "Al Jazeera" istər xəbər, istər reportaj formatında işlənilən əksər materiallarında "etnik ermənilər" ifadəsini nəzərəçarpacaq qədər çox istifadə edir. Məsələn, *"Dağlıq Qarabağdan köç etmiş etnik ermənilər öz evlərinə dönməyi arzulayır və Azərbaycan hökumətini tənqid edirlər" (Ethnic Armenians who fled Nagorno-Karabakh long for homes decry Azerbaijan)* başlığı ilə yayımlanmış reportajda "etnik" təyinindən istifadə diqqəti çəkir. Reportajda qeyd edilən "According to ethnic Armenian officials..." yəni "etnik erməni rəsmilərinin sözlərinə görə",[17] ifadəsinə diqqət yetirək. Birincisi, "rəsmi" kimi təqdim olunan şəxslərin belə bir rəsmi statusu mövcud deyil. Çünki onlar beynəlxalq hüquqa əsasən, Azərbaycana məxsus olan və vaxtilə işğal altında saxlanılmış ərazilərdə qanunsuz fəaliyyət göstərən fərdlərdir. Hər hansı rəsmi status isə yalnız Azərbaycan hökuməti tərəfindən verildiyi təqdirdə, həmin şəxslərə şamil oluna bilərdi. Bu cür təqdimat regionla az tanış olan, kortəbii emosionallığa qapılmış oxucuda istər-istəməz həmin şəxsləri rəsmi mövqeyinə gətirir. İkincisi, informasiya dəqiq formada "The individuals representing the Armenian minority"   "erməni azlığını təmsil edən şəxslər" formasında yazılsa idi, kontekst daha düzgün aydın olardı. Amma "etnik" təyininə daha çox üstünlük verilməklə oxucunun qavrama perspektivlərinə də təsir göstərməyə cəhd edildiyi diqqətli oxucu tərəfindən dərhal sezilir. Ümumiyyətlə, linqvistik seçimlərin siyasi qavrayışa təsirlərini görməzdən gəlmək olmaz. Məsələn, ABŞ rəsmiləri və ümumilikdə, cəmiyyət ölkələri barədə danışarkən "The United States of America İS" formasından istifadə edir, yəni xəbəri təkdə işlədirlər. Bu, vahid mübtədanın-bir dövlətin mövcud olduğunu vurğulayan qrammatik seçimdir. Lakin rus dilində "США начали"   "Соединенные Штаты Америки решительно осуждают"(Amerika Birləşmiş Ştatları başladılar, Amerika Birləşmiş Ştatları qınadılar) formasında işlədilir, yəni xəbər cəmdə verilir. Kənardan bu, adi qrammatik qanunauyğunluq kimi görünsə də, əslində xüsusi siyasi çalara malikdir. Belə ki, xəbərin cəmdə işlədilməsi ABŞ-nin vahid dövlət kimi deyil, ştatlardan-ayrı-ayrı siyasi vahidlərin birləşməsindən ibarət, az tabeliyi olan federasiya kimi qavranılmasına şərait yaradır.

---

[16] "Faith No More: Azerbaijan's Abdication of Duty Towards the Armenians of Nagorno-Karabakh" https://opiniojuris.org/2023/09/27/faith-no-more-azerbaijans-abdication-of-duty-towards-the-armenians-of-nagorno-karabakh/

[17] Ethnic Armenians who fled Nagorno-Karabakh long for home, decry Azerbaijan https://www.aljazeera.com/news/2023/10/6/ethnic-armenians-who-fled-karabakh

### *Dezinformasiya kampaniyalarına qarşı əks tədbirlər*

Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi (BMTM) tərəfindən Azərbaycana qarşı saxta gündəmin formalaşdırılmasına yönəlmiş cəhdlər sistemli şəkildə araşdırılır, bu istiqamətdə aparılan monitorinq və onun nəticələrinə dair hazırlanan hesabatlar akademik çevrələr üçün etibarlı elmi mənbə rolunu oynayır. Bir neçə nümunəyə nəzər salaq:

- 2023-cü ilin martında dərc edilmiş **"44 günlük müharibə dövründə və sonrasında Azərbaycan perspektivinin marginallaşdırılması" (Marginalizing the Azerbaijani Perspective: During the 44-Day War and after the War)** adlı təhlildə anti-Azərbaycan kampaniyalarının əsas istiqamətləri qruplaşdırılır. Qeyd edilir ki, Azərbaycana dair saxta gündəmlər formalaşdırılması tədbirlərin təşkili, media fəaliyyəti və ekspert rəylərinin yazılması yolu ilə aparılır. Qərb akademik dairələrində yalnız Ermənistan perspektivlərini təqdim edən, məruzəçilərin əksəriyyətinin isə erməni mənşəli olduğu tədbirlər təşkil edilir. Bunlara nümunə olaraq, 31 oktyabr 2020-ci ildə Kaliforniya Universitetində "Dağlıq Qarabağ/Artsaxa" həsr olunan konfransı, Kolumbiya Universitetinin Erməni Mərkəzi tərəfindən həmin ilin 5 noyabrında təşkil edilən paneli (yalnız erməni panelistlər iştirak etmiş, azərbaycanlı spiker olmamışdı) göstərmək olar. Bundan əlavə, Kolumbiya Hüquq Məktəbinin İnsan Hüquqları İnstitutu və Kolumbiya Universitetinin İnsan Haqlarının Tədqiqi İnstitutunda keçirilən müzakirə və tədqiqat təşəbbüslərində Azərbaycan tərəfindən müharibəyə "islamçı terrorçu"ların cəlb edilməsi ilə bağlı narrativlər təşviq edilirdi. Tədbirlərdən əlavə, özünü obyektiv adlandıran bəzi jurnalistlərin də fəaliyyətlərinə diqqət çəkilir. Xüsusilə, jurnalist və araşdırmaçı Neil Hauerin reportajlarında, əsasən erməni perspektivini ön plana çıxardığı, qərəzli və etibarsız mənbələrə-WarGonzo kanalına istinad etdiyi və Azərbaycan şəhərlərinə edilmiş terror hücumlarını görməzdən gəldiyi qeyd edilir. Bununla yanaşı, münaqişəni birtərəfli işıqlandıran jurnalist Lindsey Snelin PKK və ona bağlı strukturlarla əlaqələrinin olduğu bildirilir. BMTM-in təhlilində, həm də anti-Azərbaycan narrativlərini yayan ekspertlər Maykl Rubin və Con Marşal Evansın müxtəlif media platformalarında, xüsusilə "National Interest" və "Washington Examiner"də birtərəfli və yanlış məlumatları ehtiva edən məqalələr dərc edərək ekstremist rəy yaydıqları, Ermənistanın dövlət mövqeyini dəstəkləyərək informasiya müharibəsində iştirak etdikləri, Azərbaycan şəhərlərinə edilən hücumların miqyasını kiçiltdikləri bildirilib.[18]

[18] AIR Center, "Marginalizing the Azerbaijani Perspective: During the 44-Day War and after the War", Baku, March 2023 https://aircenter.az/uploads/Wx6DYtBSEfel.pdf

- 2023-cü ilin avqustunda BMTM tərəfindən dərc edilmiş **"Caucasus Heritage Watch": Erməni meylli təbliğatın qərəzli təqdimatı ("Caucasus Heritage Watch": The Biased Reporting of the Pro-Armenian Propaganda Group)** adlı təhlil də saxta gündəmlərin qarşısının alınmasına yönəlmiş mühüm nümunələrdən biridir. Belə ki, "Caucasus Heritage Watch" (CHW) tərəfindən hazırlanmış hesabatda Azərbaycanın Qarabağ regionundakı erməni mədəni irsinin dağıdılması və təhlükə altında olması ilə bağlı iddialar irəli sürülür.[19] BMTM-in təhlilində isə qeyd olunur ki, sözügedən hesabatın metodologiyası və obyektivliyi birinci növbədə ciddi şəkildə sual altındadır. Çünki təşkilatın (CHW) tədqiqat qrupunun üzvlərindən bir neçəsi erməni mənşəlidir. Bundan əlavə, maliyyələşmədə iştirak edən 6 sponsor təşkilatdan 3-ü - ***Armenian General Benevolent Union, Aragats Foundation və USC Institute of Armenian Studies*** - erməni təşkilatlarıdır. İkinci maraqlı məqam odur ki, həmin vaxt erməni ekspertlər Qarabağ regionunda "yeni erməni kilsələri"nin sayının 190-a yaxınlaşdığını bildirirdi ki, bu da bütün Ermənistan ərazisində inşa edilmiş yeni kilsələrin ümumi sayını üstələyən kəskin artımı göstərir. Yeni inşa edilmiş kilsələrin və mənimsənilmiş abidələrin "tarixi irs" kimi təqdim edilməsi isə Dördüncü Cenevrə Konvensiyasının müvafiq müddəalarının və Azərbaycan Respublikasının milli qanunvericiliyinin pozulması deməkdir.[20]
- Beynəlxalq Konvensiyaların siyasi mənafe və şəxsi məqsədlər naminə şərhinin geniş əks olunduğu Beynəlxalq Cinayət Məhkəməsinin keçmiş prokuroru Luis Moreno Okamponun **"2023-cü ildə ermənilərə qarşı soyqırımı" ("Genocide against Armenians in 2023")** adlı "ekspert rəyi" də dezinformasiyanın bütün parametrlərinə cavab verir.[21] Təəssüfləndirici hal ondan ibarətdir ki, bəzi beynəlxalq media qurumları müstəqil faktaraşdırma aparmadan bu rəyə istinad etmiş və bununla da hadisələr barədə təhrif olunmuş təsəvvür yaratmışdır. Bu yazısında Okampo iddia edir ki, "Azərbaycan təhlükəsizlik qüvvələrinin Laçın dəhlizini "blokadası" nəticəsində ərzaq, tibbi vasitələr və digər həyati əhəmiyyətli resurslara çıxışın məhdudlaşdırılması 1949-cu il Soyqırımı Cinayətlərinin Qarşısının Alınması və Cəzalandırılması Konvensiyasının II (c) maddəsi üzrə soyqırımı kimi qiymətləndirilməlidir. O, xüsusilə 2-ci maddənin (c) bəndinə istinad edir: qrupun fiziki məhvinə gətirib çıxarmaq məqsədilə qəsdən həyat şəraitinin pozulması.

  BMTM tərəfindən hazırlanan cavabda isə qeyd edilir ki, 2023-cü il aprelin 23-də Azərbaycan Laçın sərhəd-keçid məntəqəsini qurmaqla Ermənistanla sərhəd

---

[19] Caucasus Heritage Watch, Monitoring Report #5, June 2023, https://www.academia.edu/104037013/Caucasus_Heritage_Watch_Monitoring_Report_5_June_2023

[20] AIR Center, "Caucasus Heritage Watch: The Biased Reporting of the Pro-Armenian Propaganda Group", Baku, August 2023, https://aircenter.az/uploads/ZnT6KawFbVSB.pdf

[21] Luis Moreno Ocampo,"Genocide against Armenians in 2023", August 2023, New York https://luismorenoocampo.com/lmo_en/report-armenia/

nəzarətini tam bərpa etmiş, şəxsləri və nəqliyyat vasitələrini yoxlamağa başlamışdır. O vaxtdan etibarən, ermənilər Azərbaycanın Qarabağ bölgəsinə hərəkət edə, pasport və yük yoxlamasından keçdikdən sonra şəxsi istifadə və ya kommersiya məqsədilə mal daşıya biliblər. Lakin 2023-cü il iyunun 15-də Ermənistan ordusunun Laçında Azərbaycan sərhədçilərinə atəş açaraq bir Azərbaycan hərbçisini yaralaması ilə bir neçə gün ərzində Laçın sərhəd-keçid məntəqəsindən insanların və malların hərəkəti dayandırıldı. ABŞ də daxil olmaqla, bir çox ölkə atəş açılması ilə bağlı narahatlıqlarını ifadə etmişdi. Bununla yanaşı, 2023-cü il iyulun 11-də Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) nəqliyyat vasitələri Laçın sərhəd-keçid məntəqəsindən bəyan edilməmiş mallar daşıdığı üçün saxlanılmış, BQXK də açıqlamasında məsələdən təəssüfləndiyini ifadə etmişdi. Nəticədə, qaçaqmalçılıq faktının araşdırılması məqsədilə müvəqqəti olaraq Laçın sərhəd-keçid məntəqəsindən bağlanmışdır.[22] Bu kontekstdə, Okampoun iddiaları ekspert rəyi kimi deyil, Ermənistan dövlətinə siyasi dəstək və konsultasiya fəaliyyəti kimi qiymətləndirilməlidir.

- 2024-cü ilin martında Rasmussen Global və onun təşəbbüsü olan “Friends of Armenia Network” tərəfindən **“Avropa-Ermənistan münasibətlərinin dərinləşdirilməsi: Ermənistanda daha çox Avropa; Avropada daha çox Ermənistan” (“Deepening EU-Armenia relations: More Europe in Armenia; More Armenia in Europe”)** adlı hesabat dərc edilir. İlk baxışda sırf Ermənistan-Aİ münasibətlərinin intensivləşdirilməsinə yönəlik tövsiyə xarakteri daşıdığı təsəvvürü formalaşsa da, əslində hesabat anti-Azərbaycan narrativləri əsasında qurulub.[23] Elə həmin ilin aprelində BMTM tərəfindən sözügedən hesabatdakı dezinformasiyalara cavab olaraq sənəd hazırlanır. Vacib məqamlara nəzər yetirək:
  Hesabatda irəli sürülən əsas iddialardan biri *“Azərbaycanın Ermənistana hərbi təhdid yaratdığı və hücumla hədələdiyi”* qənaətidir. Bu arqument xəyali təhdidi qabardaraq Ermənistanın silahlandırılmasını vacibliyini və Qərb dsətəyinin artırılmasını hədəfləyir. Hesabat, həmçinin iddia edir ki, *“Azərbaycanın Dağlıq Qarabağa hərbi müdaxiləsi ölkənin danışıqlara marağı olmadığını”* nümayiş etdirir. Lakin faktlar göstərir ki, münaqişədən sonra Azərbaycan Qarabağ bölgəsinin sülh yolu ilə reinteqrasiyası üçün aktiv təşəbbüslər göstərmişdi. Azərbaycan hökuməti erməni icmasının nümayəndələrini neytral ərazilərdə, o cümlədən Bakı və Yevlax şəhərlərində danışıqlara dəvət etmiş, Qarabağdakı

---

[22] AIR Center, “Luis Moreno Ocampo’s Biased Opinion on Karabakh: Abusing the Genocide Convention for Political Ends”, August 2023, https://aircenter.az/uploads/SN5P9JpKLCAD.pdf

[23] Friends of Armenia Network, “Deepening EU-Armenia relations: More Europe in Armenia; More Armenia in Europe”, 27 March 2024 https://rasmussenglobal.com/wp-content/uploads/2024/03/FAN-Report-Deepening-EU-Armenia-relations.pdf

separatçı rejim isə yalnız "Dağlıq Qarabağ Respublikası"nın tanınmasını tələb edərək imtina cavabı vermişdir. Bu isə Azərbaycanın konstitusiya qaydalarına və beynəlxalq hüquqa ziddir. BMTM tərəfindən dərc edilən cavab sənədində həm də qeyd edilib ki, əslində Ermənistan və Rusiya Azərbaycanın Qarabağ bölgəsinə əlavə hərbi resurslar, o cümlədən minalar gətirərək ölkəmizin milli təhlükəsizliyini təhdid etmişdir. Qeyd edək ki, Danimarkanın keçmiş Baş naziri və NATO-nun sabiq Baş katibi Anders Foq Rasmussen rəhbərlik etdiyi qurumun rəsmi olaraq Ermənistan üçün lobbiçilik fəaliyyəti göstərməsi də bu baxımdan təsadüfi sayılmamalıdır. BMTM bildirir ki, dar maliyyə maraqlarını obyektivlikdən üstün tutmaqla Rasmussen yalnız Qərbin maraqlarını riskə atmır, həm də Cənubi Qafqaz regionunda gərginliyə xidmət edir. [24]

***Səbəb nədir?***

Azərbaycan 2020-ci ilə qədər münaqişənin həllində diplomatik təmaslara üstünlük vermiş, nəticə əldə olunmadıqda isə beynəlxalq hüququn ona verdiyi hüquqlardan istifadə etmişdi. Məhz bu səbəbdən aparılan psixoloji və informasiya müharibəsi üçüncü tərəfləri münaqişəyə cəlb edə bilmədi, çünki Azərbaycan heç vaxt beynəlxalq hüququn müəyyən etdiyi çərçivədən kənara çıxmadı. 2023-cü ilin lokal xarakterli antiterror tədbirlərindən sonra Qarabağa səfər edən BMT-nin missiyası da mülki infrastruktura heç bir ziyan dəymədiyi ilə bağlı bəyanat yaydı.[25]

Bəs bu qədər sübut və faktlar niyə beynəlxalq ictimaiyyətdəki bəzi siyasi və media dairələrini inandıra bilmir? Yayılan xəbərlərin dezinformasiya olması təsdiqini tapandan sonra niyə oxşar ittihamlar davam etdirilir?

Bunun səbəbi **koqnitiv qərəz (cognitive bias)** deyilən anlayışla bağlıdır. Ümumi qəbul edilmiş tərifə görə, koqnitiv qərəz şəxslərin informasiyanı obyektiv reallıqdan kənara çıxaraq şəxsi təcrübə, tanışlıq, stereotip və emosiyalar əsasında mühakiməsiz formalaşdırdığı düşüncə nümunələridir. Koqnitiv qərəz informasiyanın obyektiv emalını məhdudlaşdırır, bu isə fərdlərin qeyri-rasional düşünmə və qərarqəbuletmə qabiliyyətini zəiflədir. Konkret siyasi motivlər, eləcə də sosial çevrənin steorotipləri koqnitiv qərəzi stimullaşdıran əsas amillərdir.

---

[24] AIR Center, "Rasmussen Doing Disservice to the West by Glorifying Armenia and Demonizing Azerbaijan" April 2024 https://aircenter.az/uploads/A3oIG4dXqaNv.pdf

[25] BMT missiyası Qarabağda mülki infrastruktura heç bir ziyan dəymədiyini bildirib https://apa.az/foreign-policy/bmt-missiyasi-qarabagda-mulki-infrastruktura-hec-bir-ziyan-deymediyini-bildirib-beyanat-788573

Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi (BMTM) tərəfindən **2022-ci ildə dərc edilmiş** ***"İkinci Qarabağ müharibəsinin beynəlxalq mediada işıqlandırılması" ("International Media Coverage of The Second Karabakh War")*** sərlövhəli hesabat 44 günlük müharibəyə münasibətdə beynəlxalq medianın yanaşmalarını, onun kökündə duran səbəbləri araşdırır və səbəblərini nümunələr əsasında sistemləşdirir.[26] Hesabatda yuxarıda bəhs etdiyimiz koqnitiv qərəzin əsasında duran 3 əsas amil sıralanır:

1. Orientalizm;
2. Türkofobiya;
3. İslamofobiya.

Hesabatda qeyd edilir ki, Edward Said tərəfindən irəli sürülən "Orientalizm" anlayışı Qərbin Şərq haqqında formalaşdırdığı düşüncə və təsvir sisteminin cəmini ehtiva edən nəzəri yanaşmadır. Bu konsepsiyaya görə, Qərb özünü sivilizasiyanın və tərəqqinin mərkəzi, Şərqi isə geridə qalmış, despot və monolit bir məkan kimi təsvir edərək öz üstün mövqeyini legitimləşdirir. Orientalizm həm də Şərqi araşdıran və təsvir edən akademik, siyasi və mədəni institutların fəaliyyətində özünü göstərən geniş sistemdir. Bu sistem vasitəsilə Şərq haqqında bilik və informasiyalar istehsal olunur, həmin biliklər də öz növbəsində Qərbin üstünlüyünü əsaslandıran ideoloji çərçivə yaradır. Nəticədə, Orientalizm Şərqi müəyyən stereotiplər və təsəvvürlər çərçivəsində təqdim edən, eyni zamanda Qərbin bu region üzərində siyasi və mədəni təsirini möhkəmləndirən kompleks maraqlar və yanaşmalar toplusu kimi çıxış edir.

Türk kimliyi, mədəniyyətinə qarşı nifrət, düşmənçilik və ya qərəzli münasibət, yəni türkofobiyanın kökü Avropa dövlətləri ilə Osmanlı imperiyası arasında mövcud olmuş uzunmüddətli hərbi-siyasi rəqabətə, tarixi yaddaşa gedib çıxır. Hunların Avropaya yürüşləri, Osmanlı imperiyası ilə Avropa dövlətləri arasında baş verən müharibələr və digər tarixi qarşıdurmalar kollektiv yaddaşda qorunaraq rəqabət və düşmənçilik hisslərinin yaranmasına səbəb olub. 1970-ci illərdə ermənilərin ASALA terror təşkilatı tərəfindən türk diplomatlara qarşı həyata keçirilən silsilə sui-qəsdlərdə motivi terror aktı törətməkdən çox, 1915-ci il hadisələrinə cavab kontekstində nəzərdən keçirilməsi koqnitivin qərəzin bariz nümunəsidir. Azərbaycanın türk kimliyi də Azərbaycan-Ermənistan münaqişəsinin məhz bu prizmadan nəzərdən keçirilməsində rol oynamışdır.

---

[26] Fərid Şəfiyev, İlahə Çıraqova, "International Media Coverage of The Second Karabakh War", Bakı,2022, səhifə 9-13 https://aircenter.az/uploads/pGEcxJ54fmez.pdf

İslamofobiya XX əsrdə formalaşmış və zamanla məzmunu dəyişərək həm siyasi, həm də akademik diskursda geniş müzakirə olunan terminə çevrilmişdir. Termin ilk dəfə XX əsrin əvvəllərində Fransanın Afrikadakı müstəmləkəçiliyi dövründə irəli sürülüb, 1990-cı illərdə Böyük Britaniyada multikulturalizm müzakirələri zamanı isə daha geniş yayılaraq akademik və ictimai müzakirələrdə istifadəsi genişlənmişdir. Müasir dövrdəki mənasında isə 2001-ci il 11 sentyabr hadisələrindən sonra istifadə edilməyə başlanıb. Bu dövrdə terrorla mübarizə siyasəti və Yaxın Şərqdə baş verən müharibələr fonunda islamofobik diskurs güclənmiş, müsəlmanlar Qərb sivilizasiyası və liberal dəyərlər üçün təhlükə kimi təqdim edilmişdir.

Beləliklə, Azərbaycan-Ermənistan münaqişəsinə münasibətdə müstəqilliyinin bərpasından indiyədək formalaşmış narrativlərin kökündə bu səbəblər dayanır. Azərbaycan türk etnik kimliyinə məxsus müsəlman Şərq dövləti olması ona münasibətdə doqmalara əsaslanan ictimai-siyasi təfəkkürün katalizatoru olmuşdur.

### ***Nəticə***

Beləliklə, Rotşildlərin əhvalatı, nasistlərin yəhudilərə qarşı soyqırımları, türk diplomatlarına qarşı silsilə qətllər, ABŞ və Avropada baş verən terror aktlarının İslamla eyniləşdirilməsi, Şərqin despotizmlə əlaqələndirilməsi və Azərbaycana qarşı 30 ildən çox davam edən qaralama kampaniyalarının kökündə koqnitiv qərəz anlayışı dayanır. İctimai müzakirələrdə tutarlı əsas olmadan irəli sürülən mövzular zaman keçdikcə akademik mətnlərə, oradan isə ideoloji çərçivələrə yol taparaq dağıntılara, insan itkilərinə və inkişafın təxirə düşməsinə səbəb olur. Bu vəziyyətdə sual ortaya çıxır: həqiqət fərdlərə və dövlətlərə görə fərqli ola bildiyi üçün onun obyektiv meyarı və ya istinad nöqtəsi nə olmalıdır?

Bu istinad 1975-ci il Helsinki Yekun Aktında təsbit edilmiş, lakin əslində əsrlər boyu beynəlxalq adət hüququnun ayrılmaz hissəsi kimi formalaşmış prinsiplərə əsaslanmalıdır. Böyük güclər tərəfindən zaman-zaman selektiv şəkildə tətbiq olunmasına baxmayaraq, bu prinsiplər beynəlxalq münasibətlər sisteminin normativ çərçivə daxilində fəaliyyət göstərməsinə imkan yaradır və beləliklə, beynəlxalq sistemdə tam anarxiyanın yaranmasının qarşısını alan mühüm tənzimləyici rol oynayır. Azərbaycana qarşı genişmiqyaslı dezinformasiya kampaniyası aparıldığı şəraitdə belə, Ermənistanın əsas müttəfiqi və ərazilərimizin işğalında birbaşa dəstəyi olmuş, separatçı rejimi hər cür silah -sursatla təmin edən Rusiya 2020-ci ildə tərəf kimi müharibəyə qoşula bilmədi. Çünki Azərbaycan əməliyyatları beynəlxalq hüquqla tanınan sərhədləri çərçivəsində aparırdı.

Bu kontekstdə, dezinformasiya nəticə etibarilə, ifşa olunmağa və məğlubiyyətə məhkumdur. Bununla belə, əsas məsələ həqiqətin gec-tez üzə çıxmasından daha çox, ona aparan prosesin nə dərəcədə az siyasi, humanitar və institusional itkilərlə müşayiət olunmasıdır.

**Müəllif: Türbət Bağırova, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin (BMTM) mətbuat katibi**